**AZƏRBAYCAN RESPUBLİKASININ**
**MALİYYƏ MONİTORİNQİ XİDMƏTİ**
**PUBLİK HÜQUQİ ŞƏXS**

**Beynəlxalq Maliyyə Hesabatı Standartlarına**
**uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**
31 dekabr 2021-ci il tarixində bitən il üzrə

**MÜNDƏRİCAT**

Maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyin məsuliyyətinin bəyanı

Müstəqil auditorun hesabatı

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat ........ 4
Maliyyə vəziyyəti haqqında hesabat ........ 5
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ........ 6
Kapitalda dəyişikliklər haqqında hesabat........ 7
Maliyyə hesabatları üzrə qeydlər ........ 8-24

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında (hesabatın 1-ci səhifəsi) göstərilmiş auditorun rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin (bundan sonra - "Xidmət") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik Xidmətin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, həmin tarixdə bitən il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və mülahizələrin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Xidmətin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Xidmətin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Xidmətin maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Xidmətin aktivlərinin qorunmasının təmin edilməsi və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2021-ci il tarixində bitən il üzrə maliyyə hesabatları Xidmətin rəhbərliyi tərəfindən 08 fevral 2022-ci il tarixində təsdiq edilmişdir.

Rəhbərlik tərəfindən:

| | |
|---|---|
| **Rövşən Nəcəf** | **Arzu Nəftəliyeva** |
| **İdarə Heyətinin sədri** | **Maliyyə və Təminat şöbəsinin rəisi** |
| 08 fevral 2022-ci il | 08 fevral 2022-ci il |

## MÜSTƏQİL AUDİTORUN HESABATI

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin Rəhbərliyinə:

***Rəy***

Biz Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin (bundan sonra - "Xidmət") 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları 31 dekabr 2021-ci il tarixinə Xidmətin maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

***Rəy üçün əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Xidmətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, habelə saxtakarlıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına zəmin yaradan zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Rəhbərlik Xidmətin fəaliyyətinin fasiləsiz davam etdirilməsinin qiymətləndirilməsi və fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanmasına, habelə fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır. Rəhbərlik bu prinsipə riayət edərkən "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarını nəzərə alır. Həmin Qanunun 5-ci və 9-cu maddələrində müvafiq olaraq qeyd olunur ki, publik hüquqi şəxs müflis elan oluna bilməz və publik hüquqi şəxsin ləğvi və yenidən təşkili ilə bağlı məsələlər onun nizamnaməsi və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

Rəhbərlik Xidmətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

RSM

*Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti*

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında ümumilikdə saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair əsaslandırılmış əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Əsaslandırılmış əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, Beynəlxalq Audit Standartlarına (BAS-a) uyğun olaraq aparılmış auditin belə təhrifləri hər zaman aşkar edilməsinə zəmanət vermir.

Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud toplu olaraq, istifadəçilərin bu cur maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Xidmətin daxili nəzarətinin səmərəliliyinə dair rəy bildirməmək şərti ilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və Rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin Rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Xidmətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğuna dair qənaətə gəldiyimiz halda, audit hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Xidmətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz həmçinin idarəetməyə məsul şəxslərə müstəqilliklə bağlı müvafiq etik tələblərə əməl etməyimizlə bağlı bəyanat verir və həmin şəxsləri əsaslı şəkildə müstəqilliyimizə təsir etməsi güman edilə bilən bütün qarşılıqlı əlaqələr və digər məsələlər, habelə zəruri hallarda müvafiq ehtiyat tədbirləri barədə məlumatlandırırıq.

Biz idarəetməyə məsul şəxsləri məlumatlandırdığımız məsələlər arasından, cari dövrün maliyyə hesabatlarının auditi üçün ən mühüm əhəmiyyətə malik olmuş və bu səbəbdən, əsas audit məsələlərinə daxil edilən məsələləri müəyyən edirik. Məsələ barədə ictimaiyyətə açıqlamanın qanunvericilik və ya normativ aktlarla qadağan edilməsi halları və ya nadir hallarda bu məsələnin hesabatımızda açıqlanmasının mənfi nəticələrinin belə açıqlamanın ictimai əhəmiyyətli faydalarından artıq olması əsaslı şəkildə ehtimal edildiyi üçün, bu məsələnin hesabatımızda açıqlanmamalı olması qənaətinə gəldiyimiz hallar istisna olmaqla, biz belə məsələləri auditor hesabatımızda təqdim edirik.

08 fevral 2022-ci il
Bakı, Azərbaycan Respublikası

RSM Azerbaijan

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə | 31 dekabr 2020-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Gəlir** | 5 | **3,046,601** | **2,461,030** |
| İnsan resursları üzrə xərclər | 6 | (2,678,327) | (2,202,852) |
| Köhnəlmə və amortizasiya | | (116,889) | (101,395) |
| İnzibati və digər xərclər | 7 | (249,797) | (156,618) |
| Məzənnə fərqlərindən zərər | | (1,588) | (165) |
| **Vergidən əvvəlki mənfəət** | | - | - |
| Mənfəət vergisi xərci | | - | - |
| **İl üzrə xalis gəlir** | | - | - |
| İl üzrə digər məcmu gəlir | | - | - |
| **İl üzrə məcmu gəlir** | | - | - |

**Rəhbərlik tərəfindən:**

**Rövşən Nəcəf**
**İdarə Heyətinin sədri**

08 fevral 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Arzu Nəftəliyeva**
**Maliyyə və Təminat şöbəsinin rəisi**

08 fevral 2022-ci il
Bakı, Azərbaycan Respublikası

# AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ MONİTORİNQİ XİDMƏTİ

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 11 | 3,154,868 | 3,138,230 |
| Digər uzunmüddətli aktivlər | 10 | 12,850 | 18,076 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **3,167,718** | **3,156,306** |
| **Qısamüddətli aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 4,672,863 | 4,835,278 |
| Mal-material ehtiyatları | | 17,889 | 11,773 |
| Digər qısamüddətli aktivlər | 9 | 30,358 | 48,719 |
| **Cəmi qısamüddətli aktivlər** | | **4,721,110** | **4,895,770** |
| **CƏMİ AKTİVLƏR** | | **7,888,828** | **8,052,076** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 14 | 10,000 | 10,000 |
| Digər kapital | 15 | 3,692,162 | 3,692,162 |
| Yenidənqiymətləndirmə ehtiyatı | | 48,683 | 48,683 |
| Yığılmış zərər | | (523,699) | (523,699) |
| **CƏMİ KAPİTAL** | | **3,227,146** | **3,227,146** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Təxirə salınmış gəlir | 12 | 4,583,640 | 4,742,239 |
| Digər maliyyə öhdəlikləri | 13 | 78,042 | 82,691 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **4,661,682** | **4,824,930** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **4,661,682** | **4,824,930** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **7,888,828** | **8,052,076** |

**Rəhbərlik tərəfindən:**

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti
Financial Monitoring Service Republic of Azerbaijan

**Rövşən Nəcəf**
**İdarə Heyətinin sədri**

08 fevral 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Arzu Nəftəliyeva**
**Maliyyə və Təminat şöbəsinin rəisi**

08 fevral 2022-ci il
Bakı, Azərbaycan Respublikası

8-24-cü səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

**AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ MONİTORİNQİ XİDMƏTİ**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə | 31 dekabr 2020-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| Dövlət tərəfindən alınmış vəsait | | 2,888,000 | 3,500,000 |
| İnsan resursları üzrə xərclər | | (2,685,520) | (2,180,310) |
| İnzibati və digər xərclər | | (202,558) | (159,517) |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(78)** | **1,160,173** |
| **İnvestisiya fəaliyyəti** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | (133,526) | (284,889) |
| Digər uzunmüddətli aktivlərin alınması | | (27,042) | (18,076) |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(160,568)** | **(302,965)** |
| Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | (1,769) | (165) |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım** | | **(162,415)** | **857,043** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 8 | **4,835,278** | **3,978,235** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | | **4,672,863** | **4,835,278** |

**Rəhbərlik tərəfindən:**

**Rövşən Nəcəf**
**İdarə Heyətinin sədri**

08 fevral 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Arzu Nəftəliyeva**
**Maliyyə və Təminat şöbəsinin rəisi**

08 fevral 2022-ci il
Bakı, Azərbaycan Respublikası

8-24-cü səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Nizamnamə kapitalı | Digər kapital | Yenidən qiymətləndirmə ehtiyatı | Yığılmış zərər | Cəmi |
|---|---|---|---|---|---|
| **31 dekabr 2019-cu il tarixinə** | **10,000** | **3,692,162** | **48,683** | **(523,699)** | **3,227,146** |
| Nizamnamə kapitalında artım | - | - | - | - | - |
| Digər kapital artımı | - | - | - | - | - |
| İl üzrə məcmu gəlir | - | - | - | - | - |
| **31 dekabr 2020-ci il tarixinə** | **10,000** | **3,692,162** | **48,683** | **(523,699)** | **3,227,146** |
| Nizamnamə kapitalında artım | - | - | - | - | - |
| Digər kapital artımı | - | - | - | - | - |
| İl üzrə məcmu gəlir | - | - | - | - | - |
| **31 dekabr 2021-ci il tarixinə** | **10,000** | **3,692,162** | **48,683** | **(523,699)** | **3,227,146** |

**Rəhbərlik tərəfindən:**

**Rövşən Nəcəf**
**İdarə Heyətinin sədri**

08 fevral 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Arzu Nəftəliyeva**
**Maliyyə və Təminat şöbəsinin rəisi**

08 fevral 2022-ci il
Bakı, Azərbaycan Respublikası

8-24-cü səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## 1. Giriş

### Xidmət və onun fəaliyyəti

Bu hesabatlar "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti" publik hüquqi şəxsinin ("Xidmət") maliyyə hesabatlarını əks etdirir.

Xidmət Azərbaycan Respublikası Prezidentinin 25 may 2018-ci il tarixli 95 nömrəli Fərmanı ilə yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2018-ci il tarixli 215 nömrəli Fərmanı ilə Xidmətin Nizamnaməsi və strukturu təsdiq edilmişdir.

Xidmətin əsas məqsədi Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq üçün qanunla müəyyənləşdirilmiş tələblərə riayət olunmasına nəzarət etmək, müvafiq sahədə vahid tənzimləməni həyata keçirmək, habelə monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən digər şəxslərin, nəzarət və digər dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək, şəffaflığı və səmərəliliyi təmin etməkdən ibarətdir.

Xidmətin nizamnamə kapitalı 10,000 manat təşkil edir.

Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi İdarə Heyəti həyata keçirir.

31 dekabr 2021-ci il tarixinə Xidmətin İdarə Heyətinin sədri cənab Rövşən Çingiz oğlu Nəcəfdir.

Xidmətin inzibati binası AZ1014, Azərbaycan Respublikası, Bakı şəhəri, Bül-bül prospekti 40 qeydiyyat ünvanında yerləşir.

Xidmətin aktivləri və öhdəlikləri Azərbaycan Respublikasında yerləşir.

### Xidmətin əməliyyat mühiti

Neft ixrac edən bir ölkə kimi və neftin dövlət büdcəsinin həcmi, eləcə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün Azərbaycan iqtisadiyyatı neftin dəyərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu səbəbdən sözügedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər valyuta dəyərdəndüşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyri-sabitlik kimi bu və ya digər makro-iqtisadi faktorların mövcudluğuna gətirib çıxarır.

Azərbaycan nefti 2021-ci il ərzində neft birjalarında yüksəliş tendensiyası göstərmişdir."Azeri Light" markalı neftin bir barelinin qiyməti artaraq 82,07 dollar olmuşdur. Azərbaycanda sənayenin strukturunda da qeyrineft-qaz sektorunun xüsusi çəkisi daha sürətlə artır. Azərbaycan dördüncü sənaye inqilabının tələblərinə uyğun inkişaf edir.İlin ikinci yarısında Avropada təşviş yarandı. Təbii qazın qiyməti artmağa başladı və bir neçə dəfə tarixi rekordları yenilədi. Sonuncu ən yüksək göstərici dekabrın 21-də əldə olundu. Həmin vaxt Avropada "mavi yanacağın" birja qiyməti min kubmetr üçün 2,150 ABŞ dollarına çatdı. Bu hadisələrin fonunda enerji bazarı iştirakçılarının diqqəti Azərbaycana yönəlib. İlkin olaraq, bu il ölkənin Avropaya 5 milyard kubmetrədək qaz ixrac edəcəyi planlaşdırılsa da, 2021-ci ilin yanvar-noyabr ayları ərzində faktiki ixrac həcmi 7,3 milyard kubmetr təşkil edib.

2021-ci ildə dünyada hökm sürən dərin sosial-iqtisadi böhrana baxmayaraq, bir çox əsas sahələr üzrə inkişaf templəri qorunub saxlanıldı. 2021-ci ildə, eyni zamanda işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlanıldı, Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə 500 milyonuncu ton neft ixrac edildi, Azərbaycan və Türkmənistan "Dostluq" yatağının birgə işlənməsi haqqında razılığa gəldilər, qeyri-neft ixracı tarixi rekorda çatdı. Bu il dünya üçün ikinci "koronavirus ili" oldu. Əgər 2020-ci il şok effekti qlobal iqtisadiyyata ciddi zərbə vurmuşdusa, 2021-ci ildə dünya tədricən özünə gəlməyə başladı.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar minimum aylıq əməkhaqqının məbləği 2022-ci il yanvarın 1-dən 300 manat müəyyən edilsin. 2021-ci ilin yanvar-noyabr aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2020-ci ilin müvafiq dövrünə nisbətən 2,9 faiz artaraq 724,1 manat təşkil etmişdir. 01 yanvar 2021-ci il tarixindən. İcbari tibbi sığortanın tətbiqinə başlanıldı. Qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8,000 manata qədər olan hissəsindən ödənilən sığorta haqqının məbləğinə 2022-ci il yanvarın 1-dək 50 faiz güzəşt tətbiq edilir.

Bu o deməkdir ki, 2022-ci il yanvarın 1-dək qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8,000 manata qədər olan hissəsindən 1%, 8,000 manatdan yuxarı olan hissəsindən isə 0.5% miqdarında icbari tibbi sığorta haqqı tutulacaq.

## 1. Giriş (davamı)

2022-ci ildən etibarən isə sözügedən sektor üzrə işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8,000 manata qədər olan hissəsindən 2% miqdarında icbari tibbi sığorta haqqının tutulması müəyyən olunub.

Xidmətin rəhbərliyi iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Xidmətin dayanıqlı inkişaf strategiyasını dəstəkləmək üçün qabaqlayıcı tədbirlər görür. Buna baxmayaraq, mövcud iqtisadi vəziyyətin gələcək təsirini qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

## 2. Maliyyə hesabatlarının tərtib edilməsinin əsasları

### Uyğunluq haqqında hesabat

Hazırkı hesabata əlavə edilən maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmışdır.

### Qiymətləndirmənin əsasları

Maliyyə hesabatları ilkin dəyər uçotuna əsasən hazırlanmışdır.

### Funksional və təqdimat valyutası

Xidmətin funksional valyuta vahidi Azərbaycan manatıdır (bundan sonra AZN) və AZN Azərbaycan Respublikasının milli valyutası olaraq baş verən hadisələrin əksəriyyətini və onlarla bağlı vəziyyətlərin iqtisadi mahiyyətini əks etdirir. AZN həmçinin hazırkı maliyyə hesabatlarının məqsədləri üçün təqdimat valyutasıdır. AZN ilə ifadə edilən maliyyə məlumatları ən yaxın tam rəqəmədək yuvarlaqlaşdırılmışdır.

### Ehtimalların və mülahizələrin tətbiqi

MHBS-yə uyğun maliyyə hesabatlarının hazırlanması Rəhbərlikdən uçot siyasətinə və təqdim edilmiş aktivlərin, öhdəliklərin, gəlir və xərclərin məbləğinə təsir göstərən ehtimalların, fərziyyələrin və mülahizələrin irəli sürülməsini tələb edir. Faktiki nəticələr həmin ehtimallardan fərqlənə bilər.

Ehtimallar və fərziyyələr mütəmadi qaydada nəzərdən keçirilir. Mühasibatlıq ehtimallarında dəyişikliklər həmin dəyişikliklərin edildiyi dövrdə və təsir göstərdikləri hər hansı gələcək dövrlərdə əks olunur.

### Qeyri-monetar kapital qoyuluşunun tanınması

16 saylı MUBS "Əmlak, tikili və avadanlıqlar" – müəssisələrdən natura formasında əldə edilmiş əmlak, tikili və avadanlığın vahidini ədalətli dəyərdə kapital şəklində hesablanmasını tələb edir.

### Fasiləsizlik prinsipi

Bu Maliyyə Hesabatları Xidmətin yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, Xidmət yaxın gələcəkdə ləğv olunmasına, habelə fəaliyyətini dayandırmağa və ya Azərbaycan Respublikasının Qanunları və ya normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində Xidmətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir.

Davamlılıq prinsipi təxminlərin Rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən fərziyyələrin edilməsi vacibdir.

## 3. Əsas uçot siyasəti

### Xarici valyuta

Xarici valyuta ilə əməliyyatlar əməliyyat tarixindəki rəsmi valyuta məzənnələrinə uyğun Xidmətin müvafiq funksional valyutasına çevrilir. Xarici valyutada olan monetar aktiv və öhdəliklər hesabat tarixinə həmin tarixdə mövcud olan məzənnəyə əsasən funksional valyutaya çevrilir. Monetar maddələr üzrə xarici valyuta gəliri ya zərəri dövrün əvvəlinə olan və dövr ərzində effektiv faiz və ödənişlərə uyğunlaşdırılmış funksional valyutada amortizasiya edilmiş dəyərlə dövrün sonuna mövcud olan valyuta məzənnəsi ilə çevrilmiş xarici valyutanın amortizasiya edilmiş dəyəri arasındakı fərqdir. Xarici valyutalarda ədalətli dəyərlə ölçülən qeyri-monetar aktivlər və öhdəliklər ədalətli dəyərin müəyyən olunduğu tarixdə mövcud olan valyuta məzənnəsinə əsasən funksional valyutaya çevrilir. Xarici valyutada ilkin dəyəri ilə ölçülən qeyri-monetar maddələr əməliyyat günündə mövcud olan valyuta məzənnəsini istifadə etməklə çevrilir. Çevrilmə zamanı ortaya çıxan məzənnə fərqləri mənfəət və zərər hesabatında tanınır.

### Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitlərinə və onların ekvivalentlərinə əldə olan nağd pul və banklarda saxlanılan hesablaşma hesabı daxildir. Pul vəsaitləri və onların ekvivalentləri maliyyə vəziyyəti haqqında hesabatda amortizasiya olunmuş dəyərdə tanınır.

Aşağıda qeyd olunmuş uçot siyasəti maliyyə hesabatlarında əks edilmiş dövrə Xidmət tərəfindən tətbiq olunur.

### 9 saylı MHBS *"Maliyyə Alətləri"*

9 saylı MHBS 01 yanvar 2018-ci il tarixində və ya bu tarixdən sonrakı illik dövrlər üçün 39 saylı *"Maliyyə alətləri: tanınma və qiymətləndirmə"* adlı MHBS-ni əvəz edir.

(a) *Təsnifləşdirmə və qiymətləndirmə*

9 saylı MHBS təsnifat və ölçülmə kateqoriyasını təyin etmək üçün kapital alətləri və onların törəmələri istisna olmaqla, bütün maliyyə aktivlərinin Xidmətin aktivlərinin idarə olunmasının, biznes modeli və müqavilələli pul vəsaitlərinin hərəkətinin xarakteristikalarının kombinasiyası əsasında ölçülməsini tələb edir. 39 saylı MUBS üzrə maliyyə aktivlərinin ölçülməsi kateqoriyaları (mənfəət və zərər vasitəsilə ədalətli dəyərdə tanınan (MZƏD), satıla bilən (SB), ödəniş tarixinədək saxlanılmış və amortizasiya olunmuş dəyər) aşağıda qeyd olunan kateqoriyalarla əvəz olunmuşdur:

- Amortizasiya olunmuş dəyərdə Borc alətləri
- Tanınmanın dayandırılmasından yaranan gəlir və xərclərin mənfəət və ya zərər hesabına bərpa olunduğu Sair məcmu gəlirlər vasitəsilə ədalətli dəyərdə tanınan Borc alətləri,
- Tanınmanın dayandırılmasından yaranan gəlir və xərclərin mənfəət və ya zərər hesabına bərpa olunmadığı Sair məcmu gəlirlər vasitəsilə ədalətli dəyərdə tanınan Borc alətləri
- Mənfəət və ya zərər hesabatında ədalətli dəyərdə tanınan maliyyə aktivləri

Maliyyə öhdəlikəri üçün uçot Xidmətin öz kredit riskindən yaranan və mənfəət və ya zərər hesabına tanınan gəlir və xərclərlə bağlı yanaşma istisna edilməklə, 39 saylı MUBS-da olduğu kimi dəyişməz olaraq qalmışdır. Bu əməliyyatlar mənfəət və ya zərər hesabatına heç bir sonrakı yenidən təsnifləşdirilmə tətbiq olunmadan sair məcmu gəlirlər hesabatında göstərilməlidir.

**3. Əsas uçot siyasəti (davamı)**

**Maliyyə alətləri**

***Təsnifat***

*Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə tanınan maliyyə alətlərinə* aşağıdakı maliyyə aktivləri və öhdəlikləri daxildir:

- yaxın müddət ərzində əsaslı şəkildə satış və ya yenidən alınma məqsədilə əldə olunan və ya yaradılan alətlər;
- birgə idarə olunan və qısamüddətli gəlirliyi ilə seçilən müəyyən maliyyə alətləri portfelinin bir hissəsi olan alətlər;
- ilkin tanıma zamanı mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə tanınan alətlər.
- Xidmət maliyyə aktiv və öhdəliklərini mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə tanıya bilər:
- aktivlərin və öhdəliklərin idarə edilməsi, qiymətləndirilməsi və daxili uçotu ədalətli dəyər əsasında aparılır;
- bu cür təsnifat artan mühasibatlıq uyğunsuzluqlarını aradan qaldırır və ya əhəmiyyətli dərəcədə azaldır, yaxud;
- aktivin və ya öhdəliyin tərkibinə müqavilə əsasında tələb olunacaq pul vəsaitlərinin hərəkətini əhəmiyyətli dərəcədə dəyişən derivativ vəsait daxildir.

Bütün ticari derivativlərin xalis dəyəri (müsbət ədalətli dəyər), habelə alınmış opsionlar, aktivlərdə debitor borcu kimi əks olunur. Bütün ticari derivativlərin xalis dəyəri (mənfi ədalətli dəyər), habelə silinmiş opsionlar, öhdəliklərdə kreditor borcu kimi əks olunur.

Rəhbərlik maliyyə alətlərinin həmin kateqoriyada təsnifləşdirilməsinin müvafiqliyini onlar uçota alındığı zaman müəyyən edir. Derivativ maliyyə alətlərinin və uçota alındığı zaman ədalətli dəyər əsasında mənfəətə və ya zərərlərə aid edilmiş maliyyə alətlərinin "ədalətli dəyər əsasında mənfəət və ya zərər kateqoriyası" təsnifatı dəyişdirilə bilməz.

Kreditlər və debitor borcu meyarlarına cavab verən maliyyə aktivlərinin "ədalətli dəyər əsasında mənfəət və ya zərərlər" yaxud "satıla bilən" təsnifatı o zaman dəyişdirilə bilər ki, Xidmətin onları gələcəkdə və ya ödəniş tarixinədək özündə saxlamaq həm niyyəti, həm də imkanları olsun. Digər maliyyə alətlərinin "ədalətli dəyər əsasında mənfəət və ya zərər" təsnifatı yalnız çox nadir hallarda dəyişdirilə bilər. Bu cür hallar qeyri-adi xarakteri olan və yaxın gələcəkdə təkrarlanması ehtimal olunmayan tək bir hadisə nəticəsində yarana bilər.

Kreditlər və debitor borcları aktiv bazarda qiymətləri göstərilməyən, sabit və ya müəyyən edilə bilən ödənişlərə malik olan qeyri-derivativ maliyyə aktivləridir. Aşağıdakı kateqoriyalar bu təsnifata daxil deyil:

- Xidmətin dərhal və ya yaxın müddətdə satmaq niyyətində olduğu;
- Uçota alındığı zaman ədalətli dəyər əsasında mənfəətə və ya zərərlərə aid edilən;
- Uçota alındığı zaman satıla bilən kateqoriyasına aid edilən, yaxud;
- Kredit pisləşməsi səbəbi istisna olmaqla, tam olaraq ilkin investisiya əsaslı şəkildə Xidmət tərəfindən bərpa edilməyən.

**Maliyyə alətlərinin tanınması**

Maliyyə aktivləri və öhdəlikləri, Xidmətin alətin müqavilə şərtlərinin tərəfdaşı kimi çıxış etdiyi andan maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Maliyyə aktivlərinin bütün müntəzəm alışları hesablaşma tarixinə müvafiq olaraq uçota alınır.

**Maliyyə aktivlərinin qiymətləndirmə üsulları**

Maliyyə aktivləri və ya öhdəlikləri ilk əvvəl ədalətli dəyərlə və ədalətli dəyəri mənfəət və zərər vasitəsi ilə tanınmayan maliyyə aktivi və ya öhdəliyi olarsa, həmin maliyyə aktivinin və ya öhdəliyinin alınmasına və ya buraxılmasına birbaşa aid olan əməliyyat xərcləri üzərinə əlavə olunmaqla ölçülür.

## 3. Əsas uçot siyasəti (davamı)

### Maliyyə aktivlərinin qiymətləndirmə üsulları (davamı)

İlkin tanınmadan sonra isə maliyyə aktivləri və derivativlər, həmin maliyyə aktivlərinin və derivativlərin satışı və ya silinməsi ilə əlaqəli əməliyyat xərcləri çıxılmadan ədalətli dəyərlə ölçülür. Lakin istisna halları aşağıdakılar təşkil edir:

- Effektiv faiz üsulu ilə amortizasiya edilmiş dəyərlə qiymətləndirilmiş kreditlər və debitor borcları;
- Effektiv faiz üsulu ilə amortizasiya edilmiş dəyərlə qiymətləndirilmiş ödəniş tarixinədək saxlanılan investisiyalar;
- Aktiv bazarda təklif qiyməti olmayan və ədalətli dəyəri etibarlı şəkildə qiymətləndirilə bilinməyən ilkin dəyərlə qiymətləndirilmiş kapital (səhm) investisiyaları.

Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə tanınan və ya tanınmasının dayandırılması uyğun olmayan, uçotu ədalətli dəyər əsasında aparılan maliyyə aktivinin köçürməsindən yaranan bütün maliyyə öhdəlikləri amortizasiya edilmiş dəyərlə qiymətləndirilir.

### Amortizasiya olunmuş dəyər

Maliyyə aktivlərinin və ya öhdəliklərinin amortizasiya edilmiş dəyəri həmin maliyyə aktivlərinin və ya öhdəliklərinin ilkin dəyərindən əsas ödənişlər və dəyərsizləşmə üzrə ehtiyatlar çıxılaraq və ilkin dəyərlə ödəmə dəyəri arasındakı fərqlərin effektiv faiz üsulu ilə ümumi amortizasiyası çıxılmaqla yaxud üstə gəlməklə qiymətləndirilir. İlkin əməliyyat xərcləri daxil olmaqla, mükafatlar və diskontlar alətin qalıq dəyərinə daxil edilir və həmin alətin effektiv faiz dərəcəsinə əsasən amortizasiya edilir.

### *Ədalətli dəyərin müəyyənləşdirilməsi prinsipləri*

Ədalətli dəyər əməliyyat tarixində bazar iştirakçıları tərəfindən adi sövdələşmə nəticəsində və ya, həmin tarixdə Xidmət üçün ən əlverişli bazarda aktivin satışından və ya öhdəliyin ötürülməsindən yaranan məbləğdir. Öhdəliyin ədalətli dəyəri öhdəliyin yerinə yetirilməməsi riskini əks etdirir.

Uyğun olduğu halda Xidmət alətin ədalətli dəyərini aktiv bazarda həmin alət üçün mövcud olan bazar qiyməti ilə qiymətləndirir. Əgər bazar qiymətləri haqqında hazır və müntəzəm şəkildə əldə edilə bilən məlumat mövcuddursa və həmin qiymətlərlə könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatlar varsa, bazar aktiv hesab edilir.

Maliyyə aləti üçün fəal bazarı yoxdursa, Xidmət ədalətli dəyəri qiymətləndirmə üsulundan istifadə etməklə təyin edir.

Seçilmiş qiymətləndirmə üsulu bazar məlumatlarından maksimum istifadə edir, Xidmətə məxsus olan ehtimallara mümkün qədər az əsaslanır, bazar iştirakçılarının qiymət qoyarkən nəzərə aldıqları bütün amilləri özündə birləşdirir və maliyyə alətlərinin qiymətləndirilməsi üçün qəbul edilmiş iqtisadi metodlara uyğun olur.

Maliyyə alətinin ilkin tanınma zamanı ədalətli dəyərinin ən yaxşı sübutu əməliyyat qiymətidir, yəni verilən və ya qəbul edilən məbləğin ədalətli dəyəri. Əgər Xidmət ilkin tanınma zamanı ədalətli dəyərin əməliyyat qiymətindən fərqləndiyini müəyyən edirsə və ədalətli dəyər fəal bazarda oxşar aktiv və öhdəlik üçün kotirovka olunan qiymətlə sübut oluna bilmədikdə, eləcə də müşahidə edilə bilən bazarlardan olan məlumatlar vasitəsilə qiymətləndirmə metoduna əsaslanmadıqda, maliyyə aləti ilkin tanıma zamanı ədalətli dəyərlə əməliyyat qiyməti arasında fərqin aradan qaldırılmasına uyğunlaşdırılmış ilkin ədalətli dəyərində qiymətləndirilir. Nəticədə, fərq bazar məlumatı ilə əsaslanmadan yaxud əməliyyatın bağlanma tarixindən gec olmayaraq, alətin istifadə müddəti ərzində uyğun əsasla mənfəət və zərər hesabatında tanınır.

## 3. Əsas uçot siyasəti (davamı)

***Sonrakı qiymətləndirmə nəticəsində yaranan gəlir və zərərlər***

Maliyyə aktivi və ya öhdəliyinin ədalətli dəyərindəki dəyişiklikdən yaranan gəlir və ya zərərlər aşağıdakı qaydada tanınır:

- mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə təsnif olunan maliyyə aləti üzrə gəlir və ya zərər mənfəət və ya zərərdə tanınır;

- satıla bilən maliyyə aktivi üzrə gəlir və ya zərərlər həmin aktivin tanınmasının dayandırıldığı müddətədək kapitalda digər məcmu gəlir kimi tanınır (satıla bilən maliyyə alətlərinin dəyərsizləşməsi nəticəsində yaranan zərərlər və xarici valyuta ilə əməliyyatlarından yaranan gəlir və zərərlər istisna olmaqla) və tanınma dayandırıldığı zaman həmin aktiv üzrə qabaqcadan kapitalda tanınmış bütün gəlir və ya zərərlər mənfəətə və ya zərərdə tanınır. Satıla bilən maliyyə aktivi üzrə hesablanan faiz gəlirləri və ya xərcləri effektiv faiz dərəcəsi üsulu ilə müvafiq olaraq mənfəət və ya zərərdə tanınır.

Amortizasiya edilmiş dəyərlə uçotu aparılan maliyyə aktivləri və öhdəlikləri və amortizasiya prosesində olan maliyyə aktivləri və öhdəlikləri üzrə gəlirlər və ya zərərlər həmin maliyyə aktivlərinin və ya öhdəliklərinin tanınmasının dayandırıldığı və ya keyfiyyətinin pisləşdiyi zaman mənfəət və ya zərərdə tanınır.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Xidmət, maliyyə aktivindən gələn pul hərəkətinə müqavilə öhdəliyi bitdikdən sonra, maliyyə aktivini əməliyyat zamanı satarkən həmin aktivin sahibliyi ilə bağlı bütün risk və mükafatları ötürdüyü və ya Xidmət həmin aktivin sahibliyi ilə bağlı bütün risk və mükafatları saxlamadığı və digərlərinə ötürmədiyi hallarda həmin maliyyə aktivinin tanınmasını dayandırır.

Ötürülmüş maliyyə aktivində silinmə üçün yararlı olan Xidmət tərəfindən saxlanılan yaxud yaradılan hər hansı bir pay maliyyə vəziyyəti haqqında hesabatda ayrıca aktiv, yaxud öhdəlik kimi tanınır. Xidmət maliyyə öhdəliyinin tanınmasını müqavilə öhdəliyi bitdiyi yaxud, ləğv olunduğu zaman dayandırır.

Xidmət maliyyə vəziyyəti haqqında hesabatda tanınan aktivləri ötürən, lakin həmin aktivlər üzrə risk və mükafatları bütövlükdə, yaxud onların bir hissəsini öz nəzarətində saxladığı əməliyyatlar aparır.

Əgər risklər və mükafatlar əsaslı şəkildə Xidmətin nəzarətində qalıbsa, ötürülən aktivlərin tanınması dayandırılmır.

Xidmətin maliyyə aktivi üzrə mülkiyyət hüququnun bütün risk və mükafatların saxlamadığı və köçürmədiyi əməliyyatlarda aktiv üzərində nəzarət itirildiyi halda, həmin aktivin tanınması dayandırılır.

Aktiv üzərində nəzarətin saxlanıldığı əməliyyatlarda Xidmət ötürülmüş aktivin dəyərində gedən dəyişikliklərə məruz qalmağından asılı olaraq aktivi tanımağa davam edir.

Xidmət öz borc öhdəliyini geri aldığı zaman, o, maliyyə vəziyyəti haqqında hesabatdan çıxarılır və öhdəliyin balans məbləği ilə ödənilmiş kompensasiya arasındakı fərq borc öhdəliyinin vaxtından əvvəl ləğv edilməsi ilə əlaqədar yaranan gəlirlərə və ya zərərlərə aid edilir.

Xidmət geri qaytarıla bilinməyən hesab etdiyi aktivləri balansdan silir.

**Əvəzləşdirmə**

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər.

**Əmlak və avadanlıqlar**

Bina və avadanlıq yığılmış amortizasiya və dəyərsizləşmə üzrə zərər çıxılmaqla ilkin dəyərlə tanınır.

Əmlak və avadanlıqlar müxtəlif faydalı ömrə malik olan mühüm komponentləri təşkil edərsə, onlar ayrıca əmlak və avadanlıq kimi təsnifləşdirilirlər.

## 3. Əsas uçot siyasəti (davamı)

### Köhnəlmə

Köhnəlmə ayrı-ayrı aktivlərin faydalı istifadə müddətləri üzrə düz xətt prinsipi əsasında hesablanaraq mənfəətə və ya zərərlərə aid edilir. Köhnəlmə aktiv əldə edildiyi tarixdən yaxud, daxili vəsaitlər hesabına quraşdırılıb istifadə üçün hazır olduğu tarixdən etibarən başlanır. Torpaq üzrə köhnəlmə hesablanmır. Təxmin edilən faydalı istifadə müddətləri aşağıdakı kimidir:

| | |
|---|---|
| Binalar | 50 il |
| Kompüter və rabitə avadanlıqları | 5-10 il |
| Avtomobillər | 10 il |
| Digər əsas vəsaitlər | 3-10 il |

### Qeyri-maddi aktivlər

Alınmış qeyri-maddi aktivlərin uçotu yığılmış amortizasiyanın və dəyərsizləşmə ilə bağlı zərərlərin məbləğinin silinmiş dəyəri əsasında aparılır.

Proqram təminatı üzrə əldə edilmiş lisenziyalar həmin proqram təminatının alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclər əsasında kapitallaşdırılır.

Amortizasiya qeyri-maddi aktivin faydalı istifadə müddəti ərzində düz xətt metoduna əsasən mənfəət və ya zərərdə tanınır. Təxmini faydalı istifadə müddəti 2 ildən 10 illədəkdir.

### İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar

Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Xidmətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

### Ehtiyatlar

Ehtiyatlar maliyyə vəziyyəti haqqında hesabatda Xidmətin keçmiş hadisələrin nəticəsi olaraq hüquqi və ya konstruktiv öhdəliyi və həmin öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərənin istifadə edilməsi nəzərdə tutulduğu zaman tanınır. Əgər mühüm təsirə malik olarsa, bu halda ehtiyatlar gözlənilən gələcək pul dövriyyələrini pulun zaman dəyərinin cari bazar qiymətlərini və uyğun halda öhdəliklərə məxsus riskləri əks etdirən mənfəətdən qabaq vergi dərəcəsi ilə diskontlaşdırmaq vasitəsilə müəyyən edilir.

Restrukturizasiya ilə əlaqəli ehtiyatlar Xidmət detallı və formal restrukturizasiya planını təsdiqlədiyi və restrukturizasiya qüvvəyə mindiyi zamandan tanınır. Gələcək əməliyyat xərclərinə ehtiyat ayrılmır.

### Dövlət büdcəsindən ayırmalar

Xidmətə bu günədək dövlət büdcəsindən ayırmalar təxirə salınmış gəlirlər kimi təsnif olunur və maliyyə hesabatında öhdəlik bölməsində tanınır. Dövlət büdcəsindən ayırmalar Xidmətin əməliyyat xərclərini qarşılamaq məqsədilə Azərbaycan Respublikasının dövlət büdcəsindən daxil olan pul ayırmalarından ibarətdir.

### Vergilər

Xidmət publik hüquqi şəxs kimi Vergi Məcəlləsinin 106.1.4-cü bəndinə əsasən mənfəət vergisindən, 199.1-ci bəndinə uyğun olaraq əmlak vergisindən və 207.1.2-ci bəndinə uyğun olaraq torpaq vergisinin ödənilməsi öhdəliyindən azaddır.

Xidmət işçilərə əmək haqqı və oxşar ödənişlər üzrə fərdi gəlir vergisini və sosial ödənişləri hesablayır və bəyan edir. Hazırki maliyyə hesabatları rəhbərliyin vergi məsələləri üzrə ehtimal və təxminlərinə istinad edilərək hazırlanmışdır.

## 4. Yeni və yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Maliyyə hesabatlarının hazırlanmasında qəbul edilmiş uçot siyasəti, 31 dekabr 2020-ci il tarixində bitən il üçün Xidmətin maliyyə hesabatlarının hazırlanmasında uçot qaydaları ilə eynidir. 01 yanvar 2021-ci ildən qüvvəyə minən bir neçə düzəliş tətbiq olunmuşdur, lakin Xidmətin maliyyə hesabatlarına təsiri olmamışdır. 31 dekabr 2021-ci il tarixində başa çatan illik hesabat dövrü üçün tətbiqi icbari olmayan yeni və yenidən işlənmiş standartların və şərhlərin Xidmət tərəfindən erkən tətbiqi həyata keçirilməmişdir.

## 5. Gəlir

| | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə | 31 dekabr 2020-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| Dövlət tərəfindən ayrılan vəsait | 3,046,601 | 2,461,030 |
| **Cəmi gəlir** | **3,046,601** | **2,461,030** |

Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsinin müvafiq maddələrinə əsasən Xidmət sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməz. O ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur və öz fəaliyyəti çərçivəsində Azərbaycan Hökümətinin maraqlarına xidmət edir. Fəaliyyətinin təmin edilməsi məqsədilə Maliyyə Nazirliyi və Xidmət arasında imzalanmış müqaviləyə əsasən əvvəlcədən müəyyən edilmiş məbləğlərdə Xidmətə aylıq ödənişlər həyata keçirilir.

## 6. İnsan resursları üzrə xərclər

| | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə | 31 dekabr 2020-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| İşçilərə verilən əmək haqqı və digər ödənişlər | (2,244,500) | (1,885,219) |
| Dövlət Sosial Müdafiə Fonduna ödənişlər | (433,827) | (317,633) |
| **Cəmi insan resursları üzrə xərclər** | **(2,678,327)** | **(2,202,852)** |

## 7. İnzibati və digər xərclər

| | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə | 31 dekabr 2020-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| Peşəkar xidmətlər | (55,724) | (24,112) |
| Lisenziya xərcləri | (53,269) | - |
| Mühafizə xidməti | (32,522) | (32,522) |
| Kommunal xərclər | (23,163) | (18,751) |
| Rabitə və informasiya xidmətləri | (20,246) | (19,144) |
| Ofis ləvazimatları | (12,072) | (19,047) |
| Üzvlük haqqı | (11,514) | (13,823) |
| Bank xidməti | (10,563) | (8,696) |
| Ezamiyyə xərcləri | (10,444) | (9,312) |
| Saxlanma və təmir xərcləri | (4,999) | (5,709) |
| Sığorta xərcləri | (3,484) | (2,869) |
| Yanacaq xərci | (1,504) | (817) |
| Digər xərclər | (10,293) | (1,816) |
| **Cəmi inzibati və digər xərclər** | **(249,797)** | **(156,618)** |

## 8. Pul vəsaitləri və onların ekvivalentləri

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| Nağd pul | - | - |
| Banklarda olan pul vəsaitləri | 4,672,863 | 4,835,278 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **4,672,863** | **4,835,278** |

31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixlərinə pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| | **31 dekabr 2021-ci il**<br>Tələb üzrə ödənilən bank qalıqlar | **31 dekabr 2020-ci il**<br>Tələb üzrə ödənilən bank qalıqlar |
|---|---|---|
| *Nə vaxtı keçmiş, nə dəyərsizləşmiş* | | |
| - Top 15 Azərbaycan bankları | 4,672,863 | 4,835,278 |
| **Cəmi** | **4,672,863** | **4,835,278** |

Xidmətin pul vəsaitləri və onların ekvivalentlərinin 31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixlərinə valyuta üzrə bölgüsü aşağıdakı cədvəldə göstərilir:

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| Pul və pul vəsaitlərinin ekvivalentləri: | | |
| - AZN | 4,672,863 | 4,835,278 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **4,672,863** | **4,835,278** |

Gözlənilən kredit zərərinin qiymətləndirilməsi üzrə pul vəsaitləri və onların ekvivalentlərinin qalıqları Mərhələ 1-ə daxil edilir.

## 9. Digər qısamüddətli aktivlər

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| Əvvəlcədən ödənilmiş xərclər | 29,192 | 45,224 |
| Dövlət Sosial Müdafiə Fondu ilə hesablaşmalar | - | 2,039 |
| Verilmiş avanslar | 1,166 | 1,456 |
| **Cəmi digər qısamüddətli aktivlər** | **30,358** | **48,719** |

Əvvəlcədən ödənilmiş xərclərə 1 illik proqram təminatı lisenziyaları və üzvlük haqları daxildir.

## 10. Digər uzunmüddətli aktivlər

31 dekabr 2021-ci il tarixinə 12,850 AZN (2020-ci il: 18,076 AZN) məbləğində olan digər uzunmüddətli aktivlərə, müvafiq olaraq əmlak və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması və proqram təminatı ilə bağlı məsrəflərin kapitallaşdırılması daxildir.

## 11. Əmlak, avadanlıq və qeyri-maddi aktivlər

| | Binalar | Kompüter və rabitə avadanlıqları | Avtomobillər | Digər əsas vəsaitlər | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | | |
| **01 yanvar 2020-ci il tarixinə** | **2,916,000** | **101,757** | **15,000** | **22,487** | **63,110** | **3,118,354** |
| Əlavələr | - | 197,826 | - | 23,716 | 23,771 | 245,313 |
| **31 dekabr 2020-ci il tarixinə** | **2,916,000** | **299,583** | **15,000** | **46,203** | **86,881** | **3,363,667** |
| Əlavələr | **-** | 54,965 | **-** | 13,616 | 64,946 | 133,527 |
| **31 dekabr 2021-ci il tarixinə** | **2,916,000** | **354,548** | **15,000** | **59,819** | **151,827** | **3,497,194** |
| **Köhnəlmə və amortizasiya üzrə xərclər** | | | | | | |
| **01 yanvar 2020-ci il tarixinə** | **(63,180)** | **(34,627)** | **(3,000)** | **(13,140)** | **(10,095)** | **(124,042)** |
| İl üzrə köhnəlmə və amortizasiya | (58,320) | (24,514) | (3,000) | (2,468) | (13,093) | (101,395) |
| **31 dekabr 2020-ci il tarixinə** | **(121,500)** | **(59,141)** | **(6,000)** | **(15,608)** | **(23,188)** | **(225,437)** |
| İl üzrə köhnəlmə və amortizasiya | (58,320) | (31,940) | (3,000) | (10,778) | (12,851) | (116,889) |
| **31 dekabr 2021-ci il tarixinə** | **(179,820)** | **(91,081)** | **(9,000)** | **(26,386)** | **(36,039)** | **(342,326)** |
| **Qalıq dəyəri** | | | | | | |
| **31 dekabr 2020-ci il tarixinə** | **2,794,500** | **240,442** | **9,000** | **30,595** | **63,693** | **3,138,230** |
| **31 dekabr 2021-ci il tarixinə** | **2,736,180** | **263,467** | **6,000** | **33,433** | **115,788** | **3,154,868** |

## 12. Təxirə salınmış gəlir

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Dövlət tərəfindən ayrılan vəsait | 4,583,640 | 4,742,239 |
| **Cəmi təxirə salınmış gəlir** | **4,583,640** | **4,742,239** |

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Xidmət arasında imzalanmış müqaviləyə əsasən Xidmətin 2021-ci il üzrə fəaliyyətinin təmin edilməsi məqsədilə 2,888,000 AZN (2020-ci il: 3,500,000 AZN) məbləğində vəsait ayrılmışdır. 31 dekabr 2021-ci il tarixində bitən il üzrə qeyd olunan vəsaitdən 3,046,601 AZN (2020-ci il: 2,461,030 AZN) əməliyyat xərclərinin qarşılanmasına sərf edilmişdir.

## 13. Digər maliyyə öhdəlikləri

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| İstifadə olunmamış məzuniyyət | 72,271 | 77,501 |
| Ödənilməkdə olan məbləğlər | 5,771 | 5,190 |
| **Cəmi digər maliyyə öhdəlikləri** | **78,042** | **82,691** |

## 14. Nizamnamə kapitalı

| | Nizamnamə kapitalı |
|---|---|
| **01 yanvar 2020-ci il tarixinə** | **10,000** |
| Nizamnamə kapitalında artım | **-** |
| **31 dekabr 2020-ci il tarixinə** | **10,000** |
| Nizamnamə kapitalında artım | **-** |
| **31 dekabr 2021-ci il tarixinə** | **10,000** |

Xidmətin ilkin nizamnamə kapitalı 10,000 AZN təşkil edir və dövlətdən ayrılan vəsait hesabına formalaşdırılmışdır.

## 15. Digər kapital

31 dekabr 2021-ci il tarixinə 3,692,162 AZN məbləğində olan digər kapital, müvafiq olaraq yenidən təşkilatlanmanın nəticəsi kimi Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasından Xidmətin mülkiyyətinə köçürülmüş əmlak, avadanlıq və qeyri-maddi aktivləri əks etdirir.

## 16. Risklərin idarə edilməsi, korporativ idarəetmə və daxili nəzarət

### Daxili nəzarət siyasəti və prosedurları

Rəhbərlik Xidmətin əməliyyatlarının həcminə və xarakterinə uyğun olan daxili nəzarət sistemlərinin işlənib hazırlanması, icrası və saxlanmasına görə məsuliyyət daşıyır. Daxili nəzarət sistemlərinin məqsədi aşağıdakıları təmin etməkdir:

- Risklərin düzgün və hərtərəfli qiymətləndirilməsi və idarə olunması;
- Düzgün rəhbərlik, mühasibatlıq və maliyyə hesabatı funksiyaları, o cümlədən əməliyyatların düzgün təsdiqi, emalı və qeydə alınması;
- Mühasibatlıq qeydlərinin, rəhbərlik məlumatının, normativ hesabatların tamlığı, dəqiqliyi və vaxtında hazırlanması;
- İnformasiya texnologiyaları sistemlərinin etibarlılığı, məlumatlar və sistemlərin bütövlüyü və mühafizəsi;
- Saxtakar və ya qeyri-qanuni hərəkətlərin, o cümlədən aktivlərin mənimsənilməsinin qarşısının alınması.

### Qanun və qaydaların tələblərinə uyğunluq

Rəhbərlik risklərin aşkarlanması və qiymətləndirilməsi, nəzarət sistemlərinin yaradılması və onların səmərəliliyinin yoxlanılmasına görə məsuliyyət daşıyır. Rəhbərlik Xidmətin daxili nəzarət sistemlərinin səmərəliliyinə nəzarət edir və mütəmadi olaraq əlavə nəzarət sistemləri tətbiq edir, yaxud zəruri hesab olunduqda, mövcud nəzarət sistemlərinə düzəlişlər edir.

### Risklərin idarə edilməsi siyasətləri və prosedurları

Risklərin idarə edilməsi Xidmət üçün mühüm əhəmiyyət kəsb edir və Xidmətin əməliyyatlarının əsas elementidir. Xidmətin qarşılaşa biləcəyi əksər risklər bazar, kredit və likvidlik riskləri ilə əlaqəlidir.

Risklərin idarə edilməsi siyasətləri Xidmətin qarşılaşdığı riskləri müəyyən, təhlil və idarə etmək, müvafiq risk məhdudiyyətləri və nəzarətini təşkil etmək, davamlı olaraq riskin səviyyəsinə nəzarət etmək və məhdudiyyətlərə əməl etmək məqsədi daşıyır. Risklərin idarə edilməsi siyasətləri və prosedurları bazar şərtlərində, təklif edilən məhsul və xidmətlərdə, inkişaf etməkdə olan ən yaxşı təcrübədə baş verən dəyişiklikləri əks etdirmək üçün mütəmadi olaraq nəzərdən keçirilir.

Həm xarici, həm daxili risk amilləri Xidmətin bütün səviyyələrində və sahələrində müəyyən edilib idarə olunur və tənzimlənir. Risk amillərinin tam spektrının və cari risklərin tənzimlənməsi prosedurlarının təminat səviyyəsinin müəyyən edilməsinə xüsusi diqqət yetirilir.

### Bazar riski

Bazar riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitlərinin hərəkətlərinin bazar qiymətlərində baş verən dəyişikliklər səbəbindən tərəddüd edəcəyi riskdir. Bazar riski xarici valyuta riskindən, faiz dərəcəsi riskindən və sair qiymət risklərindən ibarətdir. Bazar riski bazar şəraitlərində ümumi və spesifik xarakterli dəyişikliklərin və bazar qiymətlərinin dəyişkənlik səviyyəsində dəyişikliklərin təsirinə faiz dərəcələrində, xarici valyutada və qiymətli kağızlarda açıq mövqelərlə əlaqədar yaranır.

Bazar risklərinin idarə edilməsi müəyyən parametrlər çərçivəsində bazar risklərinin idarə edilməsi və tənzimlənməsi və eyni zamanda, gəlirliliyin risklərə nisbətinin optimallaşdırılması məqsədinə xidmət edir.

Xidmət 31 dekabr 2021-ci il tarixində bitən il üçün bazar riskinə məruz qalmamışdır.

## 16. Risklərin idarə edilməsi, korporativ idarəetmə və daxili nəzarət (davamı)

### Faiz dərəcəsi riski

Faiz dərəcəsi riski maliyyə alətinin ədalətli dəyərində və ya gələcək pul vəsaitlərinin hərəkətinə bazar faiz dərəcələrində dəyişikliklər nəticəsində dəyişəcəyi riskdir. Bazar faiz dərəcələrinin səviyyələrində dəyişikliklər Xidmətin maliyyə vəziyyətinə və pul vəsaitlərinin axınına təsir edə bilər. Xidmət 31 dekabr 2021-ci il tarixində bitən il üçün faiz dərəcəsi riskinə məruz qalmamışdır.

### Xarici valyuta riski

Valyuta riski valyuta məzənnələrinin dəyişkənliyi nəticəsində yaranır. Xidmətin bütün əməliyyatlarının yalnız milli valyutada aparılması ilə əlaqədar, Xidmət birbaşa olaraq valyuta riskinə məruz qalmır. Hal-hazırda Xidmət tərəfindən xarici valyutada maliyyə vəsaitlərinin cəlb edilməsi planlaşdırılmır.

### Likvidlik riski

Likvidlik riski Xidmətin nağd pul yaxud digər maliyyə aktivini ödəməklə maliyyə öhdəliklərini yerinə yetirə bilməkdə üzləşdiyi problemlərlə əlaqəli riskdir. Likvidlik riski birbaşa olaraq Xidmətin öz öhdəliklərini vaxtında icra etmək, məqbul qiymət ilə vaxtında vəsaitləri cəlb etmək məqsədilə likvid ehtiyatları lazımi səviyyədə toplamaq qabiliyyəti ilə bağlıdır.

Likvidlik riski aktivlərin və öhdəliklərin ödəniş tarixləri uyğun gəlmədiyi hallarda baş verir. Aktiv və öhdəliklərin ödəniş tarixlərinin və faiz dərəcələrinin uyğunluğu və (ya) nəzarət olunan uyğunsuzluğu likvidliyin idarə edilməsində mühüm rol oynayır. Likvidliyin idarə edilməsində Xidmətin əsas məqsədi öhdəliklərin vaxtında icra edilməsi üçün müvafiq likvid maliyyə vəsaitlərinin mövcudluğunu təmin etməkdir.

## 16. Risklərin İdarə Edilməsi, Korporativ İdarəetmə və Daxili Nəzarət (davamı)

### Likvidlik riski (davamı)

Aşağıdakı cədvəl maliyyə vəziyyəti haqqında hesabatda əks olunan maliyyə aktivləri və öhdəliklərinin 31 dekabr 2021-ci il tarixinə gözlənilən ödəniş tarixinə əsasən təhlilini təqdim edir:

| | **Tələb olunanadək və 1 aydan az** | **1 aydan 3 ayadək** | **3 aydan 12 ayadək** | **1 ildən 5 ilədək** | **5 ildən çox** | **Ödəniş müddəti olmayan** | **Vaxtı keçmiş** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|---|
| **Qeyri-derivativ aktivlər** | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,672,863 | - | - | - | - | - | - | 4,672,863 |
| **Cəmi aktivlər** | **4,672,863** | **-** | **-** | **-** | **-** | **-** | **-** | **4,672,863** |
| **Qeyri-derivativ öhdəliklər** | | | | | | | | |
| Digər maliyyə öhdəlikləri | - | - | (78,042) | - | - | - | - | (78,042) |
| **Cəmi öhdəliklər** | **-** | **-** | **(78,042)** | **-** | **-** | **-** | **-** | **(78,042)** |
| **Xalis likvidlik mövqeyi** | **4,672,863** | **-** | **(78,042)** | **-** | **-** | **-** | **-** | **4,594,821** |
| **Məcmu likvidlik mövqeyi** | **4,672,863** | **4,672,863** | **4,594,821** | **4,594,821** | **4,594,821** | **4,594,821** | **4,594,821** | |

## 16. Risklərin İdarə Edilməsi, Korporativ İdarəetmə və Daxili Nəzarət (davamı)

**Likvidlik riski (davamı)**

Aşağıdakı cədvəl maliyyə vəziyyəti haqqında hesabatda əks olunan maliyyə aktivləri və öhdəliklərinin 31 dekabr 2020-ci il tarixinə gözlənilən ödəniş tarixinə əsasən təhlilini təqdim edir:

| | Tələb olunanadək və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | 5 ildən çox | Ödəniş müddəti olmayan | Vaxtı keçmiş | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **Qeyri-derivativ aktivlər** | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,835,278 | - | - | - | - | - | - | 4,835,278 |
| **Cəmi aktivlər** | **4,835,278** | **-** | **-** | **-** | **-** | **-** | **-** | **4,835,278** |
| **Qeyri-derivativ öhdəliklər** | | | | | | | | |
| Digər maliyyə öhdəlikləri | - | - | (82,691) | - | - | - | - | (82,691) |
| **Cəmi öhdəliklər** | **-** | **-** | **(82,691)** | **-** | **-** | **-** | **-** | **(82,691)** |
| **Xalis likvidlik mövqeyi** | **4,835,278** | **-** | **(82,691)** | **-** | **-** | **-** | **-** | **4,752,587** |
| **Məcmu likvidlik mövqeyi** | **4,835,278** | **4,835,278** | **4,752,587** | **4,752,587** | **4,752,587** | **4,752,587** | **4,752,587** | |

## 17. Əlaqəli tərəflərlə əməliyyatlar

Xidmət dövlətə məxsusdur və fəaliyyəti zamanı müxtəlif dövlət orqanları (vergi və sosial müdafiə orqanları) ilə bir sıra əməliyyatlar həyata keçirmişdir. 31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixlərinə Xidmətin bu əməliyyatlarla bağlı debitor və kreditor borcları mövcud olmamışdır.

31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il il tarixlərində insan resursları üzrə xərclərdə əlaqəli tərəflərlə əməliyyatlar aşağıda göstərilir.

Rəhbərliyə ödənişlər haqqında məlumat:

| | **31 dekabr 2021-ci il tarixində bitən il üzrə** | **31 dekabr 2020-ci il tarixində bitən il üzrə** |
|---|---|---|
| Əmək haqqı və mükafatlar | 121,345 | 148,838 |

31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixində bitən illər ərzində rəhbərliyə ödənişlər əmək haqqı və mükafatlardan ibarət olmuşdur.

## 18. Maliyyə aktivləri və öhdəlikləri: Ədalətli dəyər və mühasibat təsnifatları

### Mühasibatlıq təsnifatı və ədalətli dəyər

Ədalətli dəyər hesablamaları qiymətləndirmə tarixində bazar iştirakçıları arasında adi əməliyyatda aktivi satmaq üçün əldə olunacaq və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiyməti təxmini hesablamaq üçün həyata keçirilir. Bununla belə, qeyri-müəyyənliklər və subyektiv mülahizədən istifadə şəraitində ədalətli dəyər aktivlərin dərhal satışı və ya öhdəliklərin ötürülməsi zamanı satıla bilən kimi şərh olunmamalıdır.

Fəal bazarda ticarət olunan maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərləri kotirovka olunan bazar qiymətlərinə və ya diler qiymət təkliflərinə əsaslanır. Bütün digər maliyyə alətləri üçün Xidmət digər qiymətləndirmə üsullarından istifadə etməklə ədalətli dəyərləri müəyyən edir.

Qiymətləndirmə üsullarının məqsədi qiymətləndirmə tarixində bazar iştirakçıları arasında adi əməliyyatda aktivi satmaq üçün əldə olunacaq və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiyməti əks etdirən ədalətli dəyərin müəyyənləşdirilməsidir.

31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixlərinə Xidmətin maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin qalıqları onların ədalətli dəyərinə bərabər olmuşdur.

### Ədalətli dəyər iyerarxiyası

Xidmət ölçmələrin aparılmasında istifadə olunan əlavələrin mühümlüyünü əks etdirən aşağıdakı ədalətli dəyər iyerarxiyasından istifadə etməklə ədalətli dəyərləri ölçür:

- Səviyyə 1: eyni alətlər üçün fəal bazarda kotirovka olunan bazar qiymətləri (tənzimlənməmiş);
- Səviyyə 2: birbaşa (yəni qiymətlər kimi), ya da bilavasitə (yəni qiymətlərdən törəyən) müşahidə oluna bilən, Səviyyə 1-ə daxil edilmiş kotirovka olunan qiymətdən başqa digər əlavələr. Bu kateqoriyaya aşağıdakılardan istifadə olunmaqla qiymətləndirilmiş alətlər daxildir: oxşar alətlər üçün fəal bazarlarda kotirovka olunan bazar qiymətləri; fəaldan aşağı hesab olunan bazarlarda oxşar alətlər üçün kotirovka olunan qiymətlər; yaxud bütün mühüm əlavələrin birbaşa və ya bilavasitə bazar məlumatlarından müşahidə oluna bildiyi digər qiymətləndirmə üsulları;
- Səviyyə 3: əlavələr müşahidə oluna bilmir. Bu kateqoriyaya qiymətləndirmə üsulunun müşahidə oluna bilən məlumata əsaslanmadığı əlavələrdən ibarət olduğu və müşahidə oluna bilməyən əlavələrin bu alətin qiymətləndirilməsində mühüm təsirə malik olduğu bütün alətlər daxildir. Bu kateqoriyaya oxşar alətlər üçün kotirovka olunan qiymətlər əsasında qiymətləndirilən alətlər daxildir və bu zaman alətlər arasında fərqi əks etdirmək üçün mühüm müşahidə olunmayan tənzimləmələr və ya mülahizələr tələb olunur. 31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatda tanınan ədalətli dəyərində ölçülən maliyyə aləti olmamışdır.

## 18. Maliyyə aktivləri və öhdəlikləri: ədalətli dəyər və mühasibat təsnifatları (davamı)

### Ədalətli dəyər iyerarxiyası (davamı)

Aşağıdakı cədvəl 31 dekabr 2021-ci il tarixinə ədalətli dəyərində ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərini bu cür dəyərin təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir:

| | Səviyyə 1 | Səviyyə 2 | Səviyyə 3 | Cəmi ədalətli dəyər | Cəmi qalıq dəyəri |
|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | 4,672,863 | - | 4,672,863 | 4,672,863 |
| **Cəmi** | **-** | **4,672,863** | **-** | **4,672,863** | **4,672,863** |
| **ÖHDƏLİKLƏR** | | | | | |
| Digər maliyyə öhdəlikləri | - | - | 78,042 | 78,042 | 78,042 |
| **Cəmi** | **-** | **-** | **78,042** | **78,042** | **78,042** |

Aşağıdakı cədvəl 31 dekabr 2020-ci il tarixinə ədalətli dəyərində ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərini bu cür dəyərin təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir:

| | Səviyyə 1 | Səviyyə 2 | Səviyyə 3 | Cəmi ədalətli dəyər | Cəmi qalıq dəyəri |
|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | 4,835,278 | - | 4,835,278 | 4,835,278 |
| **Cəmi** | **-** | **4,835,278** | **-** | **-** | **4,835,278** |
| **ÖHDƏLİKLƏR** | | | | | |
| Digər maliyyə öhdəlikləri | - | - | 82,691 | 82,691 | 82,691 |
| **Cəmi** | **-** | **-** | **82,691** | **82,691** | **82,691** |

## 19. Hesabat dövründən sonra baş vermiş hadisələr

Hesabat tarixindən sonrakı dövrdə heç bir əhəmiyyətli hadisə baş verməmişdir.